

**ZAKİR GÖYÜŞOV,**
YAP Siyasi Şurasının üzvü

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN BANİSİ VƏ AZƏRBAYCAN XALQININ ƏBƏDİ LİDERİDİR

Tarix şəxsiyyətləri ilə tarix olur... Tarixi səhifələdikcə bu həqiqətin dəfələrlə şahidinə çevrilir, bəzən Atatürk, Corc Vaşinqton, Şarl de Qoll kimi tarixi şəxsiyyətlərin şücaəti və qətiyyətindən heyrətlənir, insan məfhumunun həqiqətən də dərk edilməz olduğuna inanırsan. Heydər Əliyev dühası bizim hələ də tam dərk edə bilmədiyimiz bir həqiqət və eyni zamanda özündə milyonlarla qeyri-adi şəxsiyyət elementlərini saxlayan, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcək bir liderdir.

Hələ Sovetlər İttifaqı adlanan azman bir imperiya ayaq üstə idi. Hələ sadə azərbaycanlıların coğrafi şüurunda Qarabağ adlı problem özünə kök salmamışdı. Hələ müstəqil Azərbaycan dövləti və dünyanın geosiyasi münasibətlər sistemində onun üz-üzə gələcəyi ikili standartlar yox idi. "Dünyanın düz vaxtları idi, amma Dağlıq Qarabağ Muxtar Vilayətini işğal etmək arzuları da, xırda hisslərin təzahürü olan "Böyük Ermənistan" mifologiyası da öz varlığını qoruyub saxlayırdı.

1977-ci ildə Sovetlər İttifaqının yeni Konstitusiyasını işləyib hazırlayan komissiya Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-ə birləşdirilməsini təklif etdi. Amma bu dəfə Azərbaycanın bəxti gətirmişdi. Respublikanı komissiyada təmsil edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin sərt reaksiyası və bu təklifi qəti şəkildə rədd etməsi onun həyata keçirilməsinin qarşısını aldı.

Lakin proses davam edirdi. Ermənistanın titullu ziyalıları, siyasətçiləri, elm adamları əhalini psixoloji baxımdan türklərlə savaşa hazırlamaqdaydılar. "Böyük Ermənistan"a gedən yol Qarabağ torpaqlarının işğalından keçirdi və elə buna görə də ermənilər müxtəlif vasitələrlə bu ərazini Azərbaycandan qoparmağa çalışırdılar. Lakin qarşıda kifayət qədər ciddi bir maneə var idi – Heydər Əliyev. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi yalnız siyasi və hüquqi baxımdan deyil, həm də iqtisadi va psixoloji anlamda Dağlıq Qarabağın Ermənistana ilhaqı arzusunun gerçəkləşdirilməsinə ciddi əngəllər yaradırdı. Ərazidə kompakt yaşayan ermənilər etnik ayrı-seçkilik haqqında danışmaq üçün

heç bir arqumentə malik deyildilər. Respublika rəhbərliyi bölgənin iqtisadi inkişafını təmin edəcək bütün işləri görmüşdü. Vilayətin digər regionlarla kommunikasiya əlaqələri xeyli yaxşılaşdırılmışdı. Eyni zamanda Qarabağda azərbaycanlıların məskunlaşması istiqamətində tədbirlər planı həyata keçirilirdi. Bütün bu görülən işlərin başlıca məqsədi Dağlıq Qarabağ ermənilərinin Ermənistana meyllilik əmsalını mümkün qədər aşağı salmaq, onların Bakıdan asılılığını təmin etməkdən ibarət idi. Heydər Əliyev buna nail olmuşdu. Onun nəticəsiydi ki, ermənilər DQMV-nin Ermənistana birləşdirilməsi "zərurətini" əsaslandırmaq üçün heç bir arqument tapa bilmirdilər.

Nəhayət, "Böyük Ermənistan" xəyalpərəstləri taktikani və hədəfləri dəyişmək qərarına gəldilər. Ermənistan KP MK-nin birinci katibi Karen Dəmirçiyan sonralar bu barədə danışarkən deyəcəkdi: "XX əsrdə türklərin yetişdirdiyi iki qüdrətli adam olmuşdur. Atatürk və Heydər Əliyev. Onlardan biri sağdır. Bilin o nə qədər ki, sağdır, biz nə Qarabağı ala biləcəyik, nə də başqa əraziləri". Beləliklə, ermənilər arsenallarında olan bütün mübarizə vasitələrini Heydər Əliyevi sıradan götürməyə yönəltdilər. Qarabağ müharibəsi davam edirdi və cəbhə xəttinin bir tərəfində Kremldə böyük siyasi dayaqlara malik erməni siyasiləri və ziyalıları, digər cinahında ilə "türklərin XXI əsrdə yetişdirdiyi iki qüdrətli şəxsiyyətdən biri" - Heydər Əliyev dayanmışdı. Amma yenə də sadə azərbaycanlılar bu gizli müharibədən xəbərsiz idilər. Bütün təzyiqlərə və müqavimətlərə baxmayaraq, Heydər Əliyev Qarabağ məsələsinin Ermənistanın xeyrinə həll edilməsinin qarşısını almağa müvəffəq oldu. Vilayət iqtisadi və siyasi baxımdan olduqca ciddi şəkildə Bakıdan asılı vəziyyətə salınmışdı. Sonralar, 1988-ci ildə DQMV-nin Ermənistana birləşdirilməsi məsələsi yenidən ictimai gündəmə çıxarılarkən məhz bu addımlarına görə Heydər Əliyev erməni təbliğat şəbəkəsinin və onun Moskvadakı himayədarlarının ittihamlarına məruz qalacaqdı. Onu Qarabağ ərazisini ermənilərdən təmizləməkdə, vilayətə qarşı ayrı-seçkilik siyasəti yürütməkdə ittiham edəcəkdilər. Ən ağrılısı bu çoxsahəli prosesin iştirakçıları sırasında bəzi azərbaycanlıların da adları olacaqdı.

Təcrübəli və unikal siyasətçi olan cənab Heydər Əliyev bu perspektivi proqnozlaşdırmamış deyildi. Lakin o, bütün siyasi davranışlarını və mübarizə taktikasını yalnız təmsil etdiyi millətin tarixi-siyasi maraqlarına hesablayırdı və buna görə də heç nədən, heç kimdən çəkinmədən ən təhlükəli qərarlara belə imza atmaqda tərəddüd etmirdi. Bakıdan Xankəndinə çəkilmiş dəmir yolu xətti də Qarabağı Azərbaycana bağlayan strateji kommunikasiyalardan biri oldu.

Təxribat maşını işə hələ də dayanmamışdı. 1982-ci ildə Heydər Əliyevin SSRİ rəhbərliyinə gətirilməsi erməniləri daha mütəşəkkil fəaliyyətə təhrik etdi. Siyasətdə Heydər Əliyev faktorunun mövcudluğu Qarabağın Ermənistana birləşdirilməsi ideyasinin iflası demək idi və elə buna görə də ermənilər çox geniş



spektrlı "antiəliyevçilik" təbliğatına başladılar. 1985-ci ildə Sov.İKP MK-nin baş katibi vəzifəsinə seçilən Mixail Qorbaçov bu mənfur niyyətin gerçəkləşdirilməsi üçün əlindən gələni etdi.

Artiq ermənilər ölkənin birinci şəxsinin timsalinda siyasi himayədar qazanmışdılar və bu fürsətdən maksimum istifadə etməyə çalışırdılar. 1987-ci ildə Heydər Əliyevin Siyasi Bürodan və Nazirlər Soveti sədrinin birinci müavini postundan uzaqlaşdırılması məhz bu cəhdlərin məntiqi sonluğu kimi qiymətləndirilə bilər. Ermənilərin Qarabağ istahasının qarşısında dayanan əsas maneə aradan götürülmüşdü, planın qalan hissəsinin həyata keçirilməsi texniki məsələ idi. 1988-ci ilin fevralında başlayan fırtına Azərbaycan xalqının Böyük Ermənistan ideoloqlari ilə mübarizə meydanında tək qaldığını göstərirdi.

Ermənilər artıq mübarizə taktikasını hərbi təcavüz müstəvisinə keçirmişdilər və bu baxımdan, Azərbaycandakı kütləvi etiraz aksiyaları proseslərin inkisaf istiqamətini dəyişmək qüdrətində deyildi. Azadlığı və tarixi haqqı tapdanmış Azərbaycan xalqı üzünü "Azadlıq" meydanına tutdu və Sovet tanklarının, hərb maşının təcavüzünə məruz qaldı. Kremlin özəl siyasi maraqlarını gerçəkləşdirmək missiyası ilə respublikaya rəhbər seçilmiş Əbdürrəhman Vəzirov bu müdhiş qisasçılıq aksiyasını dayandırmaq üçün heç nə etmədi və əslində, nə isə eləyə də bilməzdi. Çünki o, Qarabağın Ermənistana verilməsi ssenarisində ən vacib rollardan birini ifa etməliydi. Azərbaycan xalqı yeni tarixinin həlledici mərhələlərindən birində milli xəyanətkar obrazını ilk dəfə məhz Ə.Vəzirovun timsalında gördü. Heydər Əliyev o zaman heç bir vəzifə postunda əyləşməmişdi. Amma tarixi şəxsiyyət olaraq o, hər zaman siyasətdə olduğunu və proseslərə nüfuz etmək imkanını itirmədiyini nümayiş etdirə bilirdi. Psixoloji və ruhi sarsıntı içərisində yaşayan azərbaycanlılar 1990-cı il yanvarın 21-də onun Moskva nümayəndəliyinin binasinda qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı eşitdilər. Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham edirdi. O qayıtmışdı.

20 Yanvar faciəsindən sonra erməni hərbi birləşmələrinin cəbhə xəttində fəallığı bir qədər də artdı. Bir-birinin ardınca işğal olunan kəndlər, rayonlar, Qarabağın qarış-qarış itirildiyinə dəlalət edirdi. 1992-ci ilin mayında Şuşa erməni qəsbkarlarının əlinə keçdi, bundan əvvəl isə Xocalı Azərbaycan tarixinə faciə şəhəri kimi düşmüşdü. Şuşanın işğalı ilə faktiki olaraq bütün Yuxarı Qarabağ ermənilərin nəzarəti altına keçdi.

200 illik tarixi ərzində ilk dəfə olaraq düşmənə təslim olmuş Şuşanın süqutu mahiyyət etibarı ilə Qarabağın təhvil-təslim prosesinə qoyulmuş son nöqtə idi. Millətin tarixi yaddaşında məğlubedilməzlik simvolu kimi həkk olunmuş Şuşanın verilməsi psixoloji anlamda xalqa çox böyük zərbə idi və görünür, hələ indi-indi

dagılması mümkün olmuş uzun müddətli məğlubiyyət əhval-ruhiyyəsinin yaranmasında bu hadisənin rolu az olmamışdı. Qarabağ itirilmişdi.

Lakin hətta bundan sonra da Azərbaycanda bu problemə cəmiyyətin ümumi münasibəti başlıca olaraq bu tezis üzərində köklənirdi ki, Qarabağı heç cür ermənilərə vermək olmaz. Amma ortada olan faktiki reallıq bundan ibarət idi ki, Qarabağ ermənilərdədir. Başqa cür desək, ötən əsrin 90-ci illərinin əvvəllərində Ayaz Mütəllibov və AXC-Müsavat hakimiyyəti ərazimızın 20 faizini ermənilərə güzəştə gediblər və onun verilməsinin mümkünsüzlüyünü ehtiva edən şüarlar məsələnin mahiyyətini təhrif etməkdən başqa bir şey deyildi.

1991-ci ilin fevral ayında Azərbaycan Ali Sovetinin sessiyasında Heydər Əliyev hamını bu adı gerçəkliyi etiraf etməyə çağırırdı. "Hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması" - məsələnin dar çərçivədə qoyulması deməkdir. "Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması" - məsələ belə qoyulmalıdır. Biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq". Bu, təkcə parlamentdə aparılan müzakirələrin istiqamətinə etiraz əlaməti deyildi. Heydər Əliyev cəmiyyəti günün acı reallıqlarından xəbərdar etməyə çalışırdı. O reallıq isə bundan ibarət idi ki, Azərbaycan hakimiyyətinin siyasi laqeydliyi ucbatından Qarabağ itirilib və bu reallığı anlamaq, bütün perspektiv fəaliyyəti onun dəyişdirilməsinə hesablamaq lazimdır. Heydər Əliyev həmin sessiyada deyirdi: "Biz gərək təhlil edək: nə clir oldu ki, Dağliq Qarabağı əldən verdik!" Kifayət qədər maraqlı və haqlı sual idi. Amma sübhəsiz ki, A.Mütəllibovun rəhbərlik etdiyi siyasi komanda bu sualin cavabının arasdırılmasında maraqlı ola bilməzdi.

1990-ci ilin yayında Heydər Əliyev Naxçıvana gəldi. Muxtar respublikada vəziyyət həddindən artıq gərgin idi. İqtisadi blokadanın agır şərtləri altında yaşamağa məhkum edilmiş naxçıvanlılar bu qayıdışın talelərində böyük dönüş nöqtəsi olduguna inanırdılar. Çox qısa vaxt ərzində və məhdud imkanlar çərçivəsində Heydər Əliyev Naxçıvanda ciddi dəyişikliklər yaratmağa müvəffəq oldu. Naxçıvan MSSR Ali Sovetinə deputat seçildikdən dərhal sonra məhz onun təşəbbüsü ilə muxtar respublikanın adındakı SSR sözü götürüldü. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı dövlət rəmzi kimi qəbul edildi. 1991-ci ilin sentyabr ayının 3-də isə Naxçıvan Ali Məclisi Heydər Əlirza oglu Əliyevin Ali Məclisin sədri seçilməsi haqqında qərar qəbul etdi. Muxtar respublıkanın yeni rəhbəri iqtisadi problemlərin həllinə diqqət yetirməklə yanaşı, həm də Ermənistanla sərhəddə gedən qanlı döyüşləri səngitmək missiyasını yerinə yetirdi. Heydər Əliyevin gəlişi erməniləri Naxçıvan istiqamətində hərbi əməliyyatlara başlamaq planını təxirə salmağa vadar etdi. Heydər Əliyev hakimiyyətin bir addımlığında idi və bu, erməniləri narahat etməyə bilməzdi.

1993-cü ildə Azərbaycanda cərəyan edən proseslər cəbhə bölgəsində qazanılmıs uğurların eyforiyasından zövq alan ermənilərin kefinə soğan doğradı.



Heydər Əliyev xalqın təkidli tələblərindən sonra respublikaya yenidən rəhbərlik etməyə razılıq verdi. Hakimiyyətə qayıdarkən Heydər Əliyev sələflərinin Azərbaycana miras qoyub getdikləri bir çox ciddi problemləri həll etməli oldu. Ölkədə davamlı ictimai-siyasi sabitliyin yaradılması istiqamətində mühüm addımlar atıldı. İqtisadiyyatda tənəzzülə son qoyuldu və bütün bunlarla paralel olaraq Heydər Əliyevin 1993-cü ilin noyabrında ordunun vəziyyəti haqqında məşhur müraciəti hərb sisteminin formalasdırılması prosesinin start nöqtəsi kimi tarixə düşdü.

Çox keçmədi ki, Azərbaycan Silahlı Qüvvələri Horadiz istiqamətində erməni ordusunun mövqelərinə əhəmiyyətli zərbə endirdilər. Nəticədə işğal olunmuş 20-dən çox kənd azad edildi. Horadiz əməliyyatı Azərbaycan ordusunun Qarabağ müharibəsi dövründə qazandığı ən böyük qələbə idi və bu, artıq Ermənistanda ciddi təşviş doğurmuşdu. Azərbaycanda hərbi quruculugun çox sürətlə getməsi qarşı tərəfin işğalçılıq planlarını davam etdirmək arzusundan çəkindirdi və 1994-cü ilin may ayında Ermənistan prezidenti atəşkəs haqqında sazişin imzalanmasına razılıq verməli oldu. Qeyd edək ki, bundan əvvəl də atəşin dayandırılması haqqında təkliflər gündəliyə çıxmışdı, amma ermənilər heç vəchlə buna getmək istəmirdilər. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra qüvvələr nisbətində baş vermiş dəyişikliklər tamamilə fərqli situasiya yaratdı və bu dəfə atəşkəsi Ermənistan özü istəməli oldu. May ayının 12-də Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin təmas xəttində atəş dayandırıldı.

Atəşkəsin əldə olunması Azərbaycana restavrasiya şansı qazandırdı və çox qisa vaxt ərzində ölkədə ictimai-siyasi sabitlik yaratmaq, iqtisadi titrəyişləri aradan qaldırmaq mümkün oldu. Lakin razılaşmanın əhəmiyyəti yalniz bunlardan ibarət deyildi. Məhz atəşkəsdən sonra Azərbaycan münaqişənin ədalətli və obyektiv həlli üçün siyasi-psixoloji zəmin yaratmaq istiqamətində uğurlu diplomatik manevrlər etdi. Münaqişənin niyə, necə və nə vaxt başlaması haqqında beynəlxalq ictimaiyyətdə dolğun təsəvvürlərin formalaşdırılması, nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin problemə münasibətində ikili standartları aradan qaldırmaq lazım idi və indi atəşkəsin 9-cu ildönümü ərəfəsində biz bu mürəkkəb vəzifələrin uğurla həyata keçirildiyini tam əminliklə söyləyə bilərik.

Hələ münaqişənin ilkin mərhələsində BMT Təhlükəsizlik Şurası onu diqqətdə saxlamış və 1993-cü ildə bu problemə dair 4 qətnamə qəbul etmişdi. Lakin bu qətnamələrin heç biri yerinə yetirilmədi.

1992-ci ildən etibarən Avropa Təhlükəsizlik və əməkdaşlıq Müşavirəsi Qarabağ münaqişəsi ilə maraqlanmağa başladı və elə həmin ildə Minsk prosesinin əsasi qoyulmuş oldu. 1994-cü ildə Budapeşt sammitində bu təşkilatin tarixində ilk dəfə olaraq münaqişə zonasında sülhyaratma əməliyyatlarının həyata keçirilməsi üçün beynəlxalq sülhməramlı qüvvələrin yaradılması və bölgəyə göndərilməsi

qərara alındı. Bu, Azərbaycanın çox ciddi uguru idi. Çünki Rusiyanin o vaxtki hakimiyyəti çox cidd-cəhdlə sülhməramli qüvvələrin məhz Rusiya ordusundan təşkil olunmasına çalışırdı. Lakin Azərbaycan prezidentinin qətiyyətli və sərt reaksiyasi sözügedən təhlükəni aradan qaldırdı. Cənab Heydər Əliyev 2001-ci ilin fevralında Milli Məclisdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid məsələnin müzakirəsi zamanı bu barədə deyirdi: "Rusiyanin Müdafiə Nazirliyinin böyük tərkibdə generalları Azərbaycana planlarla gəldilər ki, harada nəyi yerləşdirəcəyik və sizə kömək edəcəyik ki, Ermənistanın qoşun hissələri buradan çıxsınlar. Mən onları dinlədim, dedim, təşəbbüsünüzə görə çox sağ olun. Amma bizim buna ehtiyacımız yoxdur. Çox cəhd etdilər, bəlkə biz gedək, yenə baxın. Dedim yox. Xahiş edirik ki, siz buradan dönüb öz yerinizə gedəsiniz. Biz o vaxt belə bir təhlükədən çıxdıq". Budapeşt sammitinin mühüm nəticələrindən biri də Minsk qrupunda həmsədrlik institutunun təsis edilməsi oldu. Rusiya və Finlandiya 1996-ci ilin sonlarına qədər MQ-də həmsədrlik missiyasını yerinə yetirdilər.

1995-ci ilin martında Azərbaycanın başı üzərində yenədə qara buludlar dolanırdı.Qan-qada bahasına əldə olunan müstəqilliyimiz növbəti sinaqla üz-üzə qalmışdı. Hərc-mərclikdən, özbaşınalıqdan yaxasını yenicə qurtaran ölkə təzədən fəlakətə sürüklənirdi. Bu, Heydər Əliyevin fədakarlıgı ilə günü-gündən möhkəmlənən dövlət müstəqilliyimizə xarici düşmənlərin himayədarlığı ilə milli dönüklərimizin yeni qəsd xülyası idi. Məkrli düşmən qüvvələr 1993-ci ilin yayından sonra dəfələrlə püç olmus xain niyyətlərini həyata keçirmək üçün omonçuların əli ilə açıq hərbi mübarizəyə keçmişdilər. Xalq öz əbədi liderinin arxasında durmaqla, onun şəxsiyyətinə inanmaqla Azərbaycan dövlətçiliyini qorudu, məkrli düsmənlərimizə Azərbaycanın hər bir təzyiqə tab gətirə biləcək güclü dövləti və vahid lideri olduğunu göstərdi. H. Əliyev dühası çox çətinliklə əldə etdiyimiz müstəqilliyimizin itirilməsinə heç bir zaman imkan verə bilməzdi.

1996-cı ilin dekabrında ATƏT-ə üzv ölkələrin dövlət və hökumət başçılarının Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilən zirvə görüşü isə Azərbaycan üçün daha uğurlu oldu. Sammitin bəyannamə layihəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipi əsasında həllini nəzərdə tutan 20-ci maddəyə Ermənistan konsensus vermədi. Buna görə də həmin maddə layihədən çıxarıldı, lakin bu, Azərbaycan prezidentini mövqeyini dəyişməyə vadar edə bilmədi. O, 20-ci maddənin qəbul olunmayacağı təqdirdə sammitin bütün sənədlərinə veto qoyacağını bəyan etdi, bu isə zirvə görüşünün nəticəsiz başa çatması demək idi. Təkidlərə və çoxsaylı xahişlərə baxmayaraq, Heydər Əliyev qərarına sadiq qaldı və nəticədə ATƏT sədrinin 20-ci maddənin bütün prinsiplərini özündə ehtiva edən bəyanatı qəbul edildi. İştirakçı dövlətlərin hamısı bu bəyanatı dəstəklədiyini bildirdi.



Lissabon zirvə görüşünün əhəmiyyəti ondan ibarət oldu ki, ən əvvəl bütün dünya kütləvi informasiya vasitələrinin diqqəti sammitə yönəldiyindən, münaqisə haqqında beynəlxalq aləmdə obyektiv gerçəklikləri özündə ehtiva edən ictimai rəy formalasdırıldı. Sülh danışıqlarının davam etdirilməsinin zəruriliyi, konfliktin həllinin vacibliyi bir daha ortaya çıxdı və razılaşma modelinin təməl prinsipləri müəyyənləşdirildi. Ən nəhayət, Ermənistan beynəlxalq hüquq normalarına qarşı çıxdıgını göstərməklə təcavüzkar olduğunu büruzə verərək diplomatik mübarizə meydanında təkləndi.

Lissabon sammitindən sonra Cənubi Qafqazda özəl siyasi və iqtisadi maraqları olan nüfuzlu ölkələr sülh prosesinə daha aktiv şəkildə qoşulmağa səy göstərirdilər. 1996-ci ilin sonunda Finlandiyanin Minsk qrupunda həmsədrlik missiyası basa çatdı və Fransa bu postu tutmaga hazır olduğunu bəyan etdi. Lakin Rusiya ilə Fransanın regiondakı siyasi maraqları arasındaki uyğunluq, üstəgəl hər iki dövlətin Ermənistanla münasibətlərində nəzərə çarpan yaxınlıq Azərbaycanı bu formatla razılasmamağa məcbur etdi. Cənab Heydər Əliyev növbəti dəfə prinsipiallıq nümayis etdirərək həmsədrlər qrupuna ABS-ın da qosulmasına nail oldu.

Beləliklə, bütün təzyiqlərə və çətinliklərə baxmayaraq, Azərbaycan prezidenti öz ölkəsinin milli maraqlarını böyük fədakarlıqlar bahasına müdafiə edirdi. Görünür, elə buna görə də Ermənistanın Daşnaksütyun Partiyasının liderlərindən biri olan Gevorq Karakosyan çıxışlarının birində "Heydər Əliyev aradan götürülməsə, Qarabağ bizə vətən yox, məhbəs olacaq. Heydər Əliyev, dünyada Ermənistanla yanaşı, erməni lobbisini də sarsıtdı" deyirdi.

Yuxarıda sadaladığımız faktlar münaqisənin Azərbaycanin milli mənafelərini təmin edən prinsiplər əsasinda həllinə istiqamətlənmis konseptual fəaliyyət prosesinin ayrı-ayrı detallaridir. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanda çox şey dəyişib, o cümlədən Ermənistanin təcavüzkarliq aktının aradan qaldinlmasi sahəsində də. AXC-Müsavat iqtidari dövründə yerləşdiyi cografi regionda belə öz iradəsini nümayiş etdirmək imkanına malik olmayan Azərbaycan Heydər Əliyevin hakimiyyəti dövründə dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşı statusunu qazanmağa müvəffəq olub.

Bu gün cəbhədə atəşkəsdir və bəlkə də kimlərəsə elə gələ bilər ki, atəş dayanibsa, artiq müharibə də yoxdur. Amma müharibə bu gün də davam edir və 1994-cü il mayin 12-də imzalanmiş saziş hələ slilh müqaviləsi deyil. Heydər Əliyev Sovet İttifaqının mövcudluğu dönəmində ermənilərlə Qarabağ ugrunda necə təkbasına mübarizə aparırdısa, bu gün də eləcə səngərdədir. Sadəcə, indi döyüş meydanlari diplomatik müstəviyə keçib.

Ötən illər ərzində respublikamız Avropa Suraşi kimi mötəbər bir təşkilatda tamhüquqlu üzv statusu ilə təmsil olunmaq imkanı qazandı və Qarabağ probleminin səbəb və nəticələri haqqında dünya ictimai rəyində obyektiv təsəvvürlər

toplusu formalaşdirmaq üçün bu tribunadan maksimum səmərəli istifadə edə bildi. Bu da bir cəbhədir və indi bizim tərəddüdsüz olaraq söyləməyə əsasımız var ki, bu cəbhədəki döyüşlərdə Ermənistan Azərbaycana böyük hesabla məğlub olub.

1994-cü ildə regionun iqtisadi perspektivini müəyyənləşdirən "əsrin müqaviləsi" imzalandi və 2002-ci ildə bir çoxlarinin əfsanə adlandirdigi Baki-Tbilisi-Ceyhanın təməl dasi qoyuldu. Ermənistan dünyanin ən qüdrətli dövlətlərinin iştirak etdiyi bu layihədən kənarda qalib və deməli, daha bir döyüşü uduzub.

Azərbaycan Türkiyə və Gürcüstanla uçtərəfli qarşiliqli təhlükəsizlik paktı imzalayib və Ermənistani faktiki olaraq üç strateji müttəfiqin əhatəşində yaşamaq gerçəkliyi ilə üz-üzə qoyub. Ermənistan bu cəbhədə də tək qalib.

ABS Azərbaycana tətbiq etdiyi 907-ci düzəlişin qüvvəsinin dayandirilmasi müddətini uzadır. Əvəzində Ermənistani terrorizmi dəstəkləyən, insan alveri ilə məşğul olan ölkələr sırasında göstərir. Dövlət Departamentinin hesabatinda Dağlıq Qarabağin Azərbaycanin ayrilmaz tərkib hissəsi olduğu və Ermənistan tərəfindən işgal olundugu qeyd edilir. Ermənistana ayrilan maliyyə yardimlarinin həcmi ilbəil azaldilir. Prezident Corc Buş çıxışlarında Azərbaycan torpaqlarinin işğal edilməsi faktindan narahatligini bildirir. Bu da Azərbaycanın, Heydər Əliyevin qələbəsidir.

Azərbaycan iqtisadi göstəricilərinə görə postsovet məkanında ən qüdrətli ölkələrdən birinə çevrilməkdədir. Ermənistan isə xarici borclarin müqabilində dövlət əhəmiyyətli müəssisələrini girov qoymaq məcburiyyətində qalib.

Azərbaycan ictimai-siyasi sabitlik, demokratiyanın inkişafı və daxili təhlükəsizlik baxımından Cənubi Qafqazin ən etibarli ölkəsinə çevrilib. Ermənistanda isə terror siyasi həyatin adi atributu statusunu qazanib.

Daha nələri qeyd etmək lazimdir ki, Ermənistanin bütün cəbhələrdə məğlubiyyətə uğradığını görmək mümkün olsun! Bizcə, bunlar da kifayətdir və bütün bu ugurlar Azərbaycanda konseptual əsaslari cənab Heydər Əliyev tərəfindən məyyənləşdirilmiş diplomatik mübarizənin yekunlarıdır.

Heydər Əliyev 1993-cü ildə torpaqlarinin 20 faizini itirmiş və əvəzində 1 milyon qaçqın "qazanmış" Azərbaycanda hakimiyyətə gəlib və çox qisa vaxt ərzində bu qədər böyük nailiyyətlərə imza atmagi yalniz unikal dövlət xadimləri bacara bilər.

Bu gün Azərbaycanda Qarabağ probleminin müharibə yolu ilə həllinə tərəfdar olanlar da az deyil və sadə vətəndaşlarin böyük hissəsi prezidentin göstəriş verəcəyi təqdirdə cəbhəyə yollanmaga tərəddüd etməyəcəyini bildirir. Çünki bu xalq sərhədləri daxilində yaşadığı dövləti Heydər Əliyevsiz təsəvvür etmədiyi kimi, konfliktin hərbi vasitələrlə aradan qaldırılması variantına üstünlük verərkən də yalnız və yalnız dövlət başçısının fövqəladə siyasi keyfiyyətlərinə istinad edir. Münaqisənin həllinin uzanmasi hamını narahat edir. Amma, eyni zamanda, hami Heydər Əliyevin komandanlıgı ilə aparılacaq müharibənin uğuruna inanır və bu mənada ictimai rəyin yekunu kimi ortaya çıxan döyüs ovqatını kütlə emosiyasının təzahürü kimi qiymətləndirmək yanlıslıq olardı.



Azərbaycan xalqi bütün digər sahələrdə olduğu kimi, Qarabağ məsələsində də Heydər Əliyevi alternativsiz güc kimi taniyir və qəbul edir. Dövlət başçımıza olan bu ümumxalq etimadı onun indiyə qədər qazandıgı bütün ugurlarin əsas səbəbidir və görünür, elə buna görə də ötən seçkilərin hamısında sadə vətəndaslar tərəddüd etmədən seçimlərini cənab Heydər Əliyevə ünvanlayıblar.

Qarşıdan növbəti prezident seçkiləri gəlir və artiq Azərbaycanda nəzərə çarpan ümumi əhval-ruhiyyə 5 il öncəki seçimin dəyişilməz qalacagını söyləməyə imkan verir. Çünki Azərbaycan xalqi bütün problemlərinin, o cümlədən Qarabağ münaqişəsinin həllini bu gün yalniz bir ünvandan gözləyir - Heydər Əliyevdən. Bu, prezidentin siyasi və tarixi məsuliyyətini artiran başlica amillərdən biridir. Son illər ərzində apanlan ardicil və aramsiz diplomatik mübarizədə əldə olunmuş və hətta bəzi hallarda ən qati radikallar tərəfindən belə etiraf edilən nailiyyətlər bu qarşılıqlı etimad zəncirinin formalaşmasında az rol oynamayıb.

Siyasi proseslərin bilavasitə istirakçısı olmasa da, xalq hər şeyi görür və hansi addimlarin öz mənafelər sistemiylə uyuşduğunu anlamaği bacarır. Bu gün Azərbaycanın milli və tarixi-siyasi maraqlarini ifadə edəcək qərarların qəbul edəcək, qüdrətli və güclü iqtisadiyyata malik olan Azərbaycanı quracaq yeganə şəxsiyyət kimi Azərbaycanin yalniz bir şansi - bu, Heydər Əliyevdir!